**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**FƏLSƏFƏ İNSTİTUTU**

*Əlyazması hüququnda*

**İSMAYILOV ÜLVİ DADAŞ OĞLU**

# YETKİNLİK YAŞINA ÇATMAYANLARA CƏZA TƏYİN EDİLMƏSİ PROBLEMLƏRİ

5611.01 – Cinayət hüququ və kriminologiya; cəza-icra hüququ

hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı – 2016**

Dissertasiya işi Odlar Yurdu Universitetinin hüquq elmləri kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| **Elmi rəhbər:** | **S.Ə. VƏLİYEV**<br>hüquq üzrə elmlər doktoru,<br>professor |
| **Rəsmi opponentlər:** | **B.S. ZAHİDOV**<br>hüquq üzrə elmlər doktoru,<br>professor |
| | **M.D. SƏLİMOV**<br>hüquq üzrə fəlsəfə doktoru,<br>dosent |
| **Aparıcı təşkilat:** | **Bakı Apellyasiya Məhkəməsi** |

Dissertasiya işinin müdafiəsi 14 dekabr 2016-cı il tarixdə saat __:__-da FD.01.103 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1143, Bakı şəhəri, H. Cavid prospekti 31, AMEA, Fəlsəfə İnstitutu, IX mərtəbə, akt zalı.

Dissertasiya işi ilə AMEA-nın Mərkəzi Elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat 7 noyabr 2016-cı il tarixdə göndərilmişdir.

**FD.01.103 Dissertasiya Şurasının**
**elmi katibi, h.ü.f.d., dos.** **X.Ə. Bayramzadə**

# I. İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Tədqiqat mövzusunun aktuallığı.** Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra ölkədə gənclərin iqtisadi, sosial, mədəni və s. hüquqlarının təmin edilməsi ilə bağlı bir sıra qanunlar qəbul edilmiş, milli qanunvericiliyin Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq konvensiyalara uyğunlaşdırılması sahəsində xeyli işlər görülmüşdür. Eyni sözlər yetkinlik yaşına çatmayanlar tərəfindən törədilən cinayət hadisələrinin ibtidai istintaqı və məhkəmələrdə baxılması, onlar haqqında qəbul edilmiş qərarların icrası ilə bağlı məsələlərə də aiddir.

"Yetkinlik yaşına çatmayanlar haqqında ədalət mühakiməsinin aparılması ilə bağlı Birləşmiş Millətlər Təşkilatının Minimal Standart qaydalarına" ("Pekin qaydalarına") və "Uşaq hüquqları haqqında Konvensiyaya" qoşulan Azərbaycan Respublikasının Cinayət və Cinayət-Prosessual Məcəllələrində həmin Sənədlərin müəyyən etdiyi bir çox müddəalar öz əksini tapmışdır. Azərbaycan Respublikasının cinayət qanunvericiliyi törədilən hər bir ictimai təhlükəli əmələ hüquqi qiymət verməklə yanaşı, həmin cinayətlərə görə cinayət məsuliyyətinə cəlb edilmənin əsaslarını da müəyyən edir. Məhz bu baxımdan yetkinlik yaşına çatmayan şəxslər tərəfindən törədilən cinayətlərə hüquqi qiymət verilməsi və həmin cinayətlərə görə məhkəmələr tərəfindən dövlət adından çıxarılan hökmlərlə təyin olunan cəzaların və həmin cəzaların çəkilməsi xüsusiyyətlərinin təhlili olduqca mühüm əhəmiyyət kəsb edir. Törətdikləri ictimai təhlükəli əməllərə görə cinayət məsuliyyətinə cəlb edilən yetkinlik yaşına çatmayan şəxslərə münasibət, onların barəsində cinayət təqibinin həyata keçirilməsi, xüsusilə də bu şəxslər barəsində tətbiq edilən cəzaların, tərbiyəvi tədbirlərin növləri, cinayət mühakiməsinin aparılması qaydaları son illər dünyada olduğu kimi Azərbaycan Respublikasında da olduqca aktuallıq qazanmışdır. Yetkinlik yaşına çatmayan şəxslərin cinayət mühakimə icraatı digər yaşlı şəxslərin işlərindən daha çətin və məsuliyyətlidir. Belə şəxslərin tərbiyə olunmaları və cəmiyyətə geri qazandırılmaları olduqca vacib bir problemdir. İstər qəsdən, istərsə də ehtiyatsızlıqdan ilk dəfə cinayət törətmiş yetkinlik yaşına çatmamış şəxslərə ağır cəzaların verilməsi, istintaq prosesində kobud rəftarlara məruz qalmaları onların gələcək həyatlarında müəyyən problemlər yaradır. Psixoloji baxımdan zədə alan və azadlıqdan məhrumetmə yerlərində cəza çəkən digər şəxslərin əhatəsində cəza çəkmələri onları belə yaşamağa aludə edir və onlarda cəmiyyətə qarşı qərəz yaradır.

Cinayət hüququ elmində yetkinlik yaşı qanunla müəyyən edilmiş yaş həddidir, həmin yaşa çatdıqda mülki fəaliyyət qabiliyyəti, habelə bir çox başqa hüquqlar və vəzifələr əmələ gəlir. Azərbaycan Respublikasının cinayət qanunvericiliyində yetkinlik yaşı on səkkiz yaş hesab edilir. Cinayət Məcəlləsinin 84-cü maddəsinin birinci bəndində deyilir: "Cinayət törədərkən on dörd yaşı tamam olmuş, lakin on səkkiz yaşına çatmamış şəxslər yetkinlik yaşına çatmayan şəxslər hesab olunur". Hal hazırkı şəraitdə yetkinlik yaşına çatmayanların hüquqi vəziyyəti cəmiyyəti narahat edən əsas məsələlərdən biridir. Cəmiyyətimizin müasir mərhələsi, ölkənin inkişaf prosesi, vətəndaşların şəxsiyyətinə, onların sosial, əxlaqi və mənəvi keyfiyyətlərinə qarşı daha yüksək, daha yetkin tələblər irəli sürür. Bu, xüsusilə gənclərə, yetişməkdə olan nəslin nümayəndələrinə aiddir. Bununla bərabər, son illərdə cəmiyyətimizin həyatında bir sıra sosial və mənəvi aşınma elementləri müşahidə olunur ki, bunlar da daha çox gənc nəslin mənəviyyatına mənfi təsir göstərir. Son illər vətəndaşlar arasında, xüsusilə gənclər arasında həyatının məqsədini maddi rifahda, hər cür vasitələrlə asan qazancda görən bir təbəqə inkişaf etmişdir. Onların spesifik mövqeyi get-gedə daha çox meydan oxuyan bir forma almış, başqalarının da beynini zəhərləyən ələbaxımlılıq dalğası yaranmışdır. Sərxoşluğun artması, norkamaniyanın yayılması, cinayətkarlığın çoxalması sosial əxlaqın pozulmasının göstəricəsi kimi qəbul edilə bilər.

Ölkəmizdə gedən yenidənqurma tam mənası ilə sosial, iqtisadi sahələrlə yanaşı hüquq elmlərinə, hüquq mühafizə orqanlarına, o cümlədən yeniyetmələr və gənclərin nümayəndələri arasında baş verən cəmiyyətə zidd hallara qarşı mübarizə xəttinə də aiddir. Buna görə Ədliyyə Nazirliyinin, məhkəmə, prokurorluq və polisin səmərəli fəaliyyətinin əsasını yeniyetmələr arasında hüquq pozuntularına qarşı mübarizədə cinayətlərin qarşısını almaq məqsədilə aparılan tərbiyəvi işin hüquqi əsasının möhkəmləndirilməsi və inkişafının təmin edilməsi, demokratiyanın və ədalətin möhkəmləndirilməsi vəzifələrinin həyata keçirməsi təşkil edir.

Sovet İttifaqının dağılması ilə müstəqil dövlətlərin yaranması cəmiyyətdə bəzi boşluqların yaranmasına səbəb olmuşdur. Bu boşluqlardan ən başlıcası gənclər arasında yayılan cinayətkarlıqdır ki, bu cəmiyyəti narahat edən əsas problemlərdən biridir. Yetkinlik yaşına çatmayanların törətdikləri cinayətlər və onlara cəza təyin edilməsi aktual mövzu olmaqla yanaşı cinayət hüququ elmində mühüm yer tutan bir sahədir.

Son dövrlər cinayətkarlığın səviyyəsinin artan xətlə inkişaf etməsi və yetkinlik yaşına çatmayanların cinayətkar aləmə cəlb olunması hallarının artması bu sahədə elmi araşdırmaların aparılmasını zəruri etmişdir. Dünyanın bir çox dövlətlərinin hüquq sistemlərində cinayət törətmiş yetkinlik yaşına çatmayanların işləri ilə əlaqədar məhkəmə orqanlarının yaradılması, yuvenal ədliyyənin önəminin artması artıq Respublikamızda da bu sahədə ixtisaslaşmış kadrların yetişdirilməsinə ehtiyac yaradır. Respublikamız son dövrlərdə yetkinlik yaşına çatmayanların cinayət işlərinin aparılması qaydalarını nizama salan bir çox beynəlxalq Konvensiya və aktlara qoşulmuşdur. Yetkinlik yaşına çatmayanlarla işin normativ-hüquqi əsası formalaşsa da nəzəri baxımdan tədqiqat əsərləri azdır. Yetkinlik yaşına çatmayanların yol verdikləri qanun pozuntularının, törətdikləri cinayətlərə görə məsuliyyətə cəlb olunarkən onlarla davranış qaydalarının, barələrində cinayət təqibinin həyata keçirilməsi, tutulması, həbsə alınması, digər istintaq hərəkətlərinin aparılması, xüsusilə bu şəxslər barəsində cinayət mühakiməsinin aparılması qaydalarının öyrənilməsinə böyük ehtiyac vardır. Belə elmi işlərin yazılması yetkinlik yaşına çatmayanlarla işləməyi bacaran kadrların hazırlanmasına və hüquq mühafizə orqanlarının əməkdaşlarının belə şəxslərlə davranış qaydalarının öyrənilməsinə yardımçı olacaqdır. Hazırda bir sıra Avropa ölkələrində yetkinlik yaşına çatmayanların işləri ilə məşğul olan məhkəmələr fəaliyyət göstərirlər və bu sahədə olduqca geniş nəzəri əsərlər yazılmaqdadır. Hazırda qonşu Rusya Federasiyasında yetkinlik yaşına çatmayanların törətdikləri cinayətlərin sayı artdığı üçün xüsusiləşdirilmiş məhkəmələrin yaradılması barədə müzakirələr aparılmaqdadır. Belə məhkəmələrin və digər orqanların yaradılması yalnız yetkinlik yaşına çatmayanların psixoloji baxımdan zədələrə məruz qalmamalarına və cinayət mühakimə icraatı həyata keçirilərkən onların hüquq və azadlıqlarının pozulmamasına xidmət edir.

Müasir dövrdə cinayətlərin törədilməsində yetkinlik yaşına çatmayanların payı nəzərə alınacaq qədər çoxdur (bax: 2-8-ci əlavələr). Bir çox hallarda yetkinlik yaşına çatmayan şəxslər məcburən cinayətin subyektinə çevrilir, digər halda isə bu cinayətlərin obyekti vəziyyətinə düşürlər. Hər iki halda, yetkinlik yaşına çatmayanların cinayətin subyektinə və ya obyektinə çevrilməsi vəziyyətində cəmiyyət dərin yaralar alır. Bir çox dövlətlərin Konstitusiyalarında olduğu kimi, Azərbaycan Respublikasının 1995-ci ildə qəbul olinmuş Konstitusiyasının 17-ci maddəsində göstərilir ki, "Cəmiyyətin əsas özəyi kimi ailə dövlətin xüsusi himayəsindədir",

"Uşaqların qayğısına qalmaq və onları tərbiyə etmək valideyinlərin borcudur. Bu borcun yerinə yetirilməsinə dövlət nəzarət edir". Yetkinlik yaşına çatmayanlara valideyin nəzarəti və bu nəzarətə dövlətin nəzarəti olduqca vacib məsələlərdəndir. Yaşadığımız hazırkı dövrdə belə şəxslərin tərbiyə olunmalarına, asudə vaxtlarının səmərəli keçirilməsinə xüsusi diqqət yetirilməlidir. Belə olacağı təqdirdə yetkinlik yaşına çatmayanların cinayət törətmələrinin qarşısını almaq mümkün olar.

Yuxarıda göstərilənlərlə yanaşı cinayətkarlıqla mübarizədə beynəlxalq əməkdaşlığa da böyük ehtiyac vardır. Cinayətkarlıqla mübarizə sahəsində dövlətlərin qarşılıqlı fəaliyyətlərini təmin etməli, dünyanın sivil ölkələrinin cinayət qanunvericiliklərini öyrənməli, onların müsbət tərəflərindən faydalanmalıyıq. Həmçinin nəzərə alınmalıdır ki, müasir dövrdə insan hüquqları və azadlıqları haqqında, hüquqi dövlət haqqında təlimlər şüurlarda hakim təsəvvürlərə çevrilmişdir. Belə vəziyyətdə milli cinayət qanunvericiliyini qabaqcıl dünyəvi prinsiplər əsasında yenidən qurmaq və insan və vətəndaş hüquq və azadlıqlarının qorunmasının etibarlı qarantına çevirmək vəzifə kimi meydana çıxır. Belə vəzifələr yeni hüquqi təfəkkürə, yüksək professionallığa malik dünya dövlətlərinin qanunvericiliyinə bələd, onun mütərəqqi ənənələrini mənimsəyən ali təhsilli hüquqşunas kadrların köməyi ilə həyata keçirilə bilər. Qeyd edilən miqyasda kadrların yetişdirilməsi üçün respublikada təhsilin maddi-texniki bazasının genişləndirilməsi və milli dildə keyfiyyətli dərsliklərin hazırlanması çox zəruridir.

Statistik məlumatlara əsasən hazırda Azərbaycan Respublikasında yetkinlik yaşına çatmayanlar tərəfindən törədilən cinayətlərin sayı ümumi cinayətkarlıqla müqayisədə az yer tutur (bax: 2-8-ci əlavələr). Lakin buna baxmayaraq yetkinlik yaşına çatmayanlarla işləməyi bacaran mütəxəsislərə və hüquqi ədəbiyyatlara ehtiyac vardır.

**Mövzunun elmi işlənmə dərəcəsi.** Son illərdə Azərbaycan Respublikasında yuvenal ədliyyə (yektinlik yaşına çatmayanların cinayət məsuliyyəti və cəzalandırılması, eləcə də cəzadan azad edilməsi məsələləri) sahəsində müxtəlif dissertasiya tədqiqatları aparılmışdır. Məsələn, 1995-ci ildə Y.N. Balakişiyeva tərəfindən "Azərbaycan Respublikasında yetkinlik yaşına çatmayanların cinayətkarlığına qarşı mübarizənin müasir problemləri" adlı, 2005-ci ildə Ş.Ş. Həsənova tərəfindən "Azərbaycan Respublikasının yeni Cinayət Məcəlləsi üzrə yetkinlik yaşına çatmayanların məsuliyyətdən azad edilməsinin problem məsələləri", A.F. Salmanov tərəfindən "Azərbaycan Respublikasının Cinayət Məcəlləsi üzrə yetkinlik

yaşına çatmayanların cəzadan azad edilməsinin problem məsələləri", E.Ə. Abdullayev tərəfindən "Yetkinlik yaşına çatmayanlara törətdiyi cinayətə görə azadlıqdan məhrum etmə növündə cəzanın tətbiqi problemləri" adlı, 2011-ci ildə L.V. Mehdiyeva tərəfindən "Yetkinlik yaşına çatmayanların cinayətkarlığına qarşı mübarizənin kriminoloji problemləri" adlı, 2016-cı ildə S.R. Bənaiyan tərəfindən "Azərbaycan Respublikası və İran İslam Respublikasının qüvvədə olan cinayət qanunvericiliyini görə yetkinlik yaşına çatmayanların narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsində iştirak etməsinə görə cinayət məsuliyyəti" adlı və s. dissertasiya işləri müdafiə edilmişdir.

Qeyd edilən və bir sıra digər tədqiqat işləri Azərbaycanın cinayət hüquq elminə yektinlik yaşına çatmayanların cinayət məsuliyyəti və cəzalandırılması, eləcə də cəzadan azad edilməsi məsələləri sahəsində özünəməxsus tövhələr vermişdir.

**Tədqiqatın obyekti və predmeti** kimi bilavasitə yetkinlik yaşına çatmayan şəxslərin əhatə dairəsinin, həmin qrup şəxslərə kimlərin daxil olması və onların cinayət məsuliyyətlərinin hədləri, ictimai-təhlükəli cinayət əməlini törədərkən yetkinlik yaşına çatmayan şəxslərə təyin olunan cəzaların növləri və hədləri, cəza təyininin xüsusiyyətləri və özünəməxsus psixoloji amillər ehtiva olunur.

**Tədqiqatın məqsəd və vəzifələri.** Yetkinlik yaşına çatmayanlara cəza təyin edilməsi problemlərindən bəhs edən dissertasiyasının məqsədi qanunvericilikdə bu sahədə olan boşluqları ortaya çıxarmaq və bu sahədə olan qanunvericiliyin tətbiqi ilə bağlı ortaya çıxan problemləri araşdırmaqdır. Dissertasiyanin **vəzifələri** sırasına isə aşağıdakılar daxildir:

– Bu sahədə beynəlxalq təcrübəni və müvafiq normaların milli qanunvericiliyə uyğunluğu imkanları müəyyən etmək;

– Mövzu ilə əlaqədar qanunvericilikdə olan boşluqların müəyyən edilməsi və onların aradan qaldırılması ilə bağlı təkliflərin irəli sürülməsi;

– Təcrübədə qanunvericiliyin tətbiqində mövcud olan problemləri aşkara çıxarmaq;

– Yetkinlik yaşına çatmayanların cinayət törətmələrində onların tərbiyə olunduğu mühitin və yaş ilə əlaqədar psixoloji xüsusiyyətlərin rolunu öyrənmək;

– Yetkinlik yaşına çatmayanlara cəza təyin edilərkən nəzərə alınmalı halları araşdırmaq;

– Tərbiyəvi xarakterli tədbirlərin tətbiq edilməsi xüsusiyyətlərini, yetkinlik yaşına çatmayanlar barəsində məcburi tərbiyəvi tədbirlərin tətbiq olunması və məzmununu tədqiq etmək;

– Yetkinlik yaşına çatmayanların cəza çəkməkdən vaxtından əvvəl şərti azad olunması məsələlərini təhlil etmək;

– Müasir dövrdə yetkinlik yaşına çatmayanlar arasında cinayətkarlığın aradan qaldırılmasında mövcud olan mübarizə sisteminin bütövlükdə cinayətkarlıqla mübarizə prosesində tutduğu yeri və rolunun əhəmiyyətini göstərmək;

– Müasir dövrdə yetkinlik yaşına çatmayanların cinayətkarlığına təsir edən sosial-psixoloji amilləri metodoloji aspektdən təhlil etmək;

– Tədqiqat prosesində Azərbaycan Respublikasında yetkinlik yaşına çatmayanların azadlıqdan məhrum edilməsi növündə cəzanın təyin edilməsi xüsusiyyətlərini və icrası mexanizmlərini açıb göstərmək;

– Yetkinlik yaşına çatmayanlar arasında cinayətkarlığa qarşı mübarizənin tədqiqi metodologiyasını işləyib hazırlamaq;

– Xarici ölkələrdə yetkinlik yaşına çatmayanların cinayətkarlığına qarşı mübarizənin xüsusiyyətlərini müqayisəli şəkildə göstərmək, bu kateqoriyadan olan cinayətkarların hüquqazidd əməllərinə görə cəza təyin edilməsinin əsas istiqamətlərini göstərmək.

**Tədqiqatın metodoloji və nəzəri əsasları.** Tədqiq olunan mövzu Azərbaycan Respublikası Cinayət Məcəlləsinin yetkinlik yaşına çatmayanların cinayət məsuliyyəti bölməsini əhatə edir. Elmi işi yazarkən bir sıra yerli və xarici müəlliflərin əsərlərindən geniş istifadə olunmuşdur. Azərbaycan Respublikasının uzun müddət keçmiş SSRİ-nin tərkibində olması digər sahələr kimi hüquq sahəsinin də birgə inkişafına səbəb olmuşdur. Bununla əlaqədar olaraq, Azərbaycan hüquq elminin Rusya hüquq elmi ilə çox sıx və oxşar əlaqələri mövcuddur. Tədqiqatçının tədqiq etdiyi mövzu rus müəllifləri tərəfindən geniş şəkildə araşdırılmışdır. Rusiyada cinayət törədən yetkinlik yaşına çatmayan şəxslərin hüquqi vəziyyəti ilə bağlı çoxlu sayda elmi əsərlər mövcuddur. Mövzu tədqiq olunarkən xüsusilə yetkinlik yaşına çatmayanların törətdikləri cinayətlərin qarşısını almaq məsələlərini araşdıran elmi əsərlər də tədqiq olumuşdur.

Mövzunun tədqiqi zamanı xüsusilə F.Y. Səməndərovun, E.Həsənovun, T.Qafarovun, B.S. Zahidovun Q.S. Qaverovun, İ.N. Sorokoteqinin, Q. Klevanın, D.D. Mironovanın, V.S. Orlovun, A.İ. Dolqovanın, L.N. Pşennikovanın, V. Aleksandroviçin, D. İvanoviçin, M.M. Babayevin, İ.İ. Karpetsinin və b. kitablarından geniş şəkildə istifadə olunmuşdur.

**Tədqiqatın metodologiyası və metodları.** Tədqiqat işi yazılarkən müqayisəli hüquqşunaslıq metoduna əsaslanılmışdır. Müxtəlif dövlətlərin hüquq ədəbiyyatlarının və qanunvericiliklərinin müqayisəli şəkildə analizi əsasında Azərbaycan Respublikası cinayət qanunvericiliyinin xüsusiyyətləri öyrənilmişdir. Xüsusilə Rusya Federasiyasının Cinayət Məcəlləsi ilə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin cinayət törədən yetkinlik yaşına çatmayanlar barəsində nəzərdə tutulan cəza və tərbiyəvi tədbirlərin müqayisəsinə geniş yer verilmişdir.

Göstərilən ədəbiyyatlarla yanaşı əsas baza kimi Azərbaycan Respublikası qanunvericiliyi ön planda olmuşdur. Çünki, cəza təyin etmə ilə bağlı, ədəbiyyatlarda o qədər də geniş məlumatlar yoxdur və qanunvericiliyin yeniləşməsi mövcud olan məlumatlarla eynilik təşkil etmir. Normativ hüquqi aktlardan əsasən Konstitusiya və Cinayət Məcəlləsindən geniş istifadə olunmuşdur.

Göstərilən problemlər araşdırılarkən Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq müqavilə və konvensiyaların tələbləri və bu tələblərə daxili qanunvericilikdə nə dərəcədə əməl olunması məsələləri araşdırılmışdır. Respublikamız müstəqillik əldə etdikdən sonra bir sıra konvensiyalara, o cümlədən «Uşaq hüquqları haqqında» Konvensiyasına, Birləşmiş Millətlər Təşkilatının yetkinlik yaşına çatmayanlar barəsində ədalət mühakiməsinin icrasına aid minimal standart Qaydalarına (Pekin Qaydaları), Uşaq hüquqları Bəyannaməsinə və s. qoşulmuşdur. Bu konvensiya və aktların başlıca şərtlərindən biri də öhdəlik götürdükdən sonra qısa zamanda ölkə daxili hüquq sisteminin bu aktlara uyğunlaşdırılması və tətbiqinə zəmin yaradılmasıdır.

Tədqiqatın **elmi yeniliyi** özünü işin istintaq prosesində yetkinlik yaşına çatmayanlarla davranışın qaydalarına, yetkinlik yaşına çatmayanların cinayət məsuliyyətinə cəlb edilməsi ilə bağlı tövsiyələrə, yetkinlik yaşına çatmayanlara təyin edilən cəzalarla bağlı tövsiyələrə, yetkinlik yaşına çatmayanlara cəza təyini zamanı psixoloji vəziyyətlərinin nəzərə alınmasına, yetkinlik yaşına çatmayanlara tətbiq edilən tərbiyəvi tədbirlərin genişləndirilməsinə, yetkinlik yaşına çatmayanların vaxtından əvvəl cəzadan azad olunmalarında nəzərə alınması vacib olan amillərə və s. aid hissələrində göstərir.

**Müdafiəyə təqdim edilən müddəalar:**

1. Cəzaların çoxluğu və ağırlığı cinayətlərin qarşısının alınmasında o qədər də effektli vasitə deyildir. Bunun üçün də yetkinlik yaşına çatmayan və risq qrupuna daxil olan şəxslər üzərində vaxtından əvvəl proflaktiki işlər

görülməlidir. Bu işlərin həyata keçirilməsində müvafiq icra hakimiyyəti orqanları xüsusi rol oynamalıdırlar.

2. Azərbaycan Respublikası Cinayət Məcəlləsində və Cinayət-Prosessual Məcəlləsində yetkinlik yaşına çatmayanlar barəsində cinayət mühakimə icraatının xüsusiyyətləri geniş şəkildə verilsə də bu sahədə bəzi boşluqlar və çatışmamazlıqlar mövcuddur. Xüsusilə tərbiyəvi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi ilə əlaqədar qanunvericiliyin araşdırılması olduqca önəmlidir. Cinayət Məcəlləsinin göstərişinə əsasən, yetkinlik yaşına çatmayan cinayət törətmiş şəxslərə yalnız böyük ictimai təhlükə törətməyən və az ağır cinayətlər törətməyə görə tərbiyəvi xarakterli tədbirlər tətbiq edilə bilər. Bu təsnifata ağır cinayətlərin əlavə edilməsi bizim fikrimizcə Cinayət Məcəlləsinin ədalətlilik və humanizm prinsiplərinə uyğun olardı.

3. Cinayət Məcəlləsinin 47.3-cü maddəsində yetkinlik yaşına çatmış şəxslərin ictimai işlər cəzasını çəkməkdən qərəzli boyun qaçırmalarının nəticələri göstərilmişdir. Lakin, həmin Məcəllənin 85.3-cü maddəsində yetkinlik yaşına çatmayanların bu cəza növünü qəsdən icra etməmələrinin nəticələri müəyyən olunmamışdır. Təbii ki, ictimai işləri yerinə yetirməkdən boyun qaçıran yetkinlik yaşına çatmayan şəxsdə hələ ki, şəxsiyyətin tam formalaşmaması və əməlinin sonrakı nəticələri barədə tam təsəvvürünün olmaması onun belə hərəkət etməsinə səbəb ola bilər. İctimai işləri yerinə yetirməkdən boyun qaçıran yetkinlik yaşına çatmayan şəxslərə yetkin yaşlı şəxslər üçün nəzərdə tutulmuş cəzaların eyni həddə tətbiq olunması ədalətsizlik olardı. Bunun üçün də bu məsələnin Cinayət Məcəlləsinin müvafiq maddəsində nəzərdə tutulması vacibdir. Qeyd edilən fikrin realizə variantı kimi Cinayət Məcəlləsinin 85.3-cü maddəsinə aşağıdakı redaksiyada yeni cümlənin əlavə edilməsi təklif edilir:

"İctimai işlərə məhkum olunmuş yektiklik yaşına çatmayan şəxs həmin işləri yerinə yetirməkdən qərəzli boyun qaçırdıqda, məhkəmə ictimai işlərin çəkilməmiş hissəsini müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəza ilə əvəz edə bilər. Bu zaman müəyyən müddətə azadlıqdan məhrum etmə cəzasının müddəti müəyyən edilərkən məhkumun ictimai işləri yerinə yetirdiyi müddət nəzərə alınır və on altı saat ictimai işə bir gün azadlıqdan məhrum etmə hesabı ilə hesablanır".

4. Cinayət-Prosessual Məcəlləsinin 435.4.3-cü maddəsinə əsasən, yetkinlik yaşına çatmayan şəxs ağır və ya xüsusi ilə ağır cinayətin, habelə ağır nəticələrə səbəb olan zor tətbiq etməklə qəsdən törədilmiş cinayətin və ya digər ağır cinayətin təkrarən törədilməsində təqsirli bilinmədiyi halda

onun azadlıqdan məhrum edilməsi məqsədəuyğun deyildir. Hesab edirik ki, qanunverici gələcəkdə qanunun bu müddəasının tətbiqinin gücləndirilməsi məqsədi ilə "məqsədəuyğun deyildir" ifadəsini "yolverilməzdir" kimi ifadə ilə əvəz etməlidir. Həmçinin Uşaq Hüquqları haqda Qanunun 42-ci maddəsində bildirilir ki, uşağa azadlıqdan məhrumetmə cəzası tətbiq edilərkən işin hallarından asılı olaraq azadlıqdan məhrumetmə cəzasının qanunda nəzərdə tutulmuş aşağı həddi təyin edilə bilər.

5. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 88-ci maddəsində təsbit edilmiş tərbiyəvi xarakterli məcburi tədbirlərin sistemini yeni tədbir növü hesabına genişləndirmək mümkündür. Bu tədbir – yetkinlik yaşına çatmayanın üzərinə zərər çəkmiş şəxsdən üzrxahlıq etmək öhdəliyinin qoyulmasıdır. Üzrxahlıq hüquq pozuntusu törətmiş yetkinlik yaşına çatmamamış şəxsin öz əməlinin mənfi nəticələrini dərk etməsinin, bundan peşman olmasının göstəricisi olmaqla yanaşı, onun əməlindən zərər çəkmiş şəxs üçün də effektiv mənəvi reabilitasiya vasitələrindəndir. Yetkinlik yaşına çatmayanın üzərinə zərər çəkmiş şəxsdən üzrxahlıq etmək öhdəliyinin qoyulması məzmunca ilk baxışdan ona oxşar digər tərbiyəvi xarakterli məcburi tədbirlərdən fərqlənir. Tərbiyəvi xarakterli məcburi tədbir növü kimi xəbərdarlıqdan fərqli olaraq, üzrxahlıq yektinlik yaşına çatmayan şəxsin üzərinə aktiv hərəkət etmək öhdəliyi qoyur. Üzrxahlıq vurulmuş ziyanı aradan qaldırmaq vəzifəsindən də fərqlidir, çünki əgər vurulmuş ziyanı aradan qaldırmaq vəzifəsinin tətbiqi yetkinlik yaşına çatmayanın əmlak vəziyyəti və əmək vərdişləri ilə şərtlənirsə, üzrxahlıq prinsipcə, bütün yetkinlik yaşına çatmayanlara tətbiq edilə bilər. Üzrxahlıq etmək bizim milli, dini və mental xüsusiyyətlərimizə də tamamilə uyğun gəlir. Təklif edirik ki, AR CM-ə aşağıdakı məzmunda 87.5 və 88.2.5-ci maddələr əlavə edilsin:

"87.5. Yetkinlik yaşına çatmayanın üzərinə zərər çəkmiş şəxsdən üzrxahlıq etmək öhdəliyinin qoyulması zamanı yetkinlik yaşına çatmayan şəxs zərər çəkmiş şəxsdən ona vurduğu ziyana görə şəxsən üzr istəyir və əməlindən peşman olduğunu bildirir;

88.2.5. yetkinlik yaşına çatmayanın üzərinə zərər çəkmiş şəxsdən üzrxahlıq etmək öhdəliyinin qoyulması".

6. Cəzadan azad edilənlər barəsində eyni vaxtda iki və ya daha artıq tərbiyəvi xarakterli məcburi tədbirlərin tətbiqinin mümkün olmasına dair Cinayət Məcəlləsinin 89-cu maddəsində göstəriş yoxdur. Fikrimizcə, Cinayət Məcəlləsinin 88.3-cü maddəsində yetkinlik yaşına çatmayana eyni vaxtda bir neçə tərbiyəvi xarakterli məcburi tədbirin tətbiq edilə bilməsi

haqqında göstərişi, 89-cu maddə üzrə cəzadan azad edilənlərə də aiddir. Çünki, qanunun özündə başqa məhdudiyyətlər nəzərdə tutulmur.

7. Xüsusi təlim-tərbiyə və ya tibbi-tərbiyə müəssisələrinə göndərilən yetkinlik yaşına çatmayanların müntəzəm surətdə təlim-tərbiyə və ya tibbi-tərbiyə tədbirlərindən boyun qaçırmaları halında, xüsusi səlahiyətli dövlət orqanlarının təqdimatı ilə belə yetkinlik yaşına çatmayan şəxslər barəsində cəzadan azad etməyə dair qərarın ləğv edilməsi və yetkinlik yaşına çatmayanların cəza çəkmə yerinə göndərilmələri ilə bağlı qanunvericilikdə göstəriş yoxdur. Fikrimizcə, bu barədə Cinayət Məcəlləsinə müvafiq əlavələr edilməlidir.

8. Cinayət qanununu pozmuş yetkinlik yaşına çatmamışların ehtiyaclarının daha səmərəli təmin edilməsi üçün onların uğursuz ailələrinin və ailə üzvlərinin həyat şəraitlərinin öyrənilməsi, qrup terapiyası keçməsi, yaşayış yeri üzrə proqramlar və s. bu kimi tədbirlərin realizəsi təmin edilməlidir. Təəssüflər olsun ki, Azərbaycan reallığında cinayət törətmiş yetkinlik yaşına çatmayanların islah edilməsinə yardım göstərəcək hər hansı bir real fəaliyyət göstərən sosial institut yoxdur. İşdə belə sosial institutların yaradılmasının vacibliyi vurğulanır.

**Tədqiqatın nəzəri və təcrübi əhəmiyyəti.** Elmi iş yetkinlik yaşına çatmayan cinayət törətmiş şəxslərin hüquqi vəziyyətinin müəyyən edilməsində olduqca önəmli bir rol oynayır. Bu iş cinayət hüquq sahəsində yetkinlik yaşına çatmayan şəxslərin cəzalandırılması problemlərinin öyrənilməsində gənc hüquqşünas kadrlar üçün vəsait rolu da oynaya bilər. Xüsusilə yuvenal ədliyyə anlayışının o qədər də geniş yayılmadığı respublikamızda «Yetkinlik yaşına çatmayanlara cəza təyin edilməsi problemləri» adlı elmi işin əhəmiyyəti böyükdür. Əsasən hüquq mühafizə orqanları sistemində çalışan kadrların yetkinlik yaşına çatmayanlarla davranış qaydaları və nəzərə alınmalı halları müəyyən edən elmi işin praktiki əhəmiyyəti də olduqca böyükdür. Hazırda yetkinlik yaşına çatmayan cinayət törətmiş şəxslərin işlərini aparan təhqiqatçı və müstəntiqlərin əsaslana biləcəkləri hansısa nəzəri ədəbiyyatların sayı çox axdır. Bu baxımdan bu elmi iş həmin şəxslərə cinayət işlərinin aparılmasında yardımçı olacaqdır.

Yetkinlik yaşına çatmayan cinayət törətmiş şəxslərin cinayət məsuliyyətinin əsasları, onlara təyin edilən cəza və tərbiyəvi tədbirlərin hüquqi analizi və onların cəzadan azad olunması yollarının nəzəri əsaslarının işlənməsi gənc hüquqşunaslar üçün əhəmiyyətli vəsait olacaqdır.

Hazırki ictimai-siyasi və sosial-iqtisadi yeniləşmənin həyata keçirildiyi dövrdə Azərbaycan Respublikası vətəndaşlarının etibarlı hüquqi mühafizəsinin təmin edilməsi, qanunların və hüquq qaydalarının möhkəmləndirilməsi, konstitusyon hüquqların, vəzifələrin və mühüm siyasi və sosial əhəmiyyət kəsb edən hüquqların həyata keçirilməsi olduqca vacib məsələlərdəndir. Həmçinin yuxarıda göstərilən hüquq və vəzifələrə Azərbaycan Respublikası vətəndaşlarının əməl etməsini təmin etmək dövlətin əsas vəzifələrindən biridir. Hazırda Respublikada cinayətkarlığın yüksək kriminogen potensialını təşkil edən yeniyetmə və cavan yaşlı şəxslərin ictimaiyyətə zidd olan müxtəlif növ hərəkətlərinin qarşısının alınması problemləri maraq doğuran və həll edilməsi vacib olan məsələlərdəndir. Yetkinlik yaşına çatmayanların cinayətkarlığına qarşı mübarizə problemləri son dərəcə kəskin və aktual olub özünə qarşı ciddi diqqət tələb edir. Bu bir sıra cəhətlərlə şərtlənir. Yetkinlik yaşına çatmayanların cinayət və digər qanun pozuntularını törətmələri müxtəlif ictimai münasibətlərə xələl gətirir. Bundan əhalinin sağlamlığına, əmlakına daha çox ziyan dəyir, eyni zamanda bu ziyandan digər ictimai münasibətlərin də payına düşür ki, bunların arasında şəxsiyyət və iqtisadiyyatı xüsusi qeyd etmək lazımdır.

Hüquq mühafizə orqanlarının fəaliyyətinin təkmilləşdirilməsində əsas istiqamətlərdən biri məktəblilərin, gənclərin hüquqi tərbiyəsinə daha çox qayğı göstərilməsindən, hüquq pozğunluqlarının profilaktikasının səmərəliliyinin artırılmasından, gənclərin qeyri formal birliklərinin cəmiyyətə zidd qüvvələrin sosial mənada neqativ təsirdən uzaqlaşdırılmasından, müxtəlif tərbiyəvi təsir formalarının seçilməsindən və s. ibarətdir. Yetkinlik yaşına çatmayanların hüquqa zidd hərəkətlərinin aradan qaldırılmasının təkmilləşdirilməsi bu gün xüsusi aktuallıq kəsb edir. Gənc nəslin formalaşmasında onun mənəvi və hüquqi tərbiyəsi, bu proseslərin qarşılıqlı əlaqəsi, hüquq fəaliyyətində bütün qüvvə, vasitə və metodlardan istifadə edilməsi xüsusi əhəmiyyət kəsb edir.

**Tədqiqatın nəticələrinin aprobasiyası.** Yazılmış elmi iş Odlar Yurdu Universitetinin hüquq elmləri kafedrasında təsdiq olunmuş və həmin kafedranın iclasında müzakirə olunaraq müdafiəyə təqdim olunmuşdur. Elmi işin əsas müddəaları bir sıra elmi konfranslarda məruzə edilmiş, məqalə və tezis şəklində müxtəlif elmi məcmuələrdə çap olunmuşdur.

**Dissertasiya işinin quruluşu** giriş, 3 fəsil, 6 paraqraf, nəticə və əlavələrdən ibarətdir.

## II. İŞİN ƏSAS MƏZMUNU

**Girişdə** tədqiqat mövzusunun aktuallığı əsaslandırılmaqla, mövzunun elmi işlənmə dərəcəsi, təqdiqatın məqsəd və vəzifələri, obyekt və predmeti, elmi yeniliyi, metodologiyası, nəzəri və təcrübi əhəmiyyəti, müdafiəyə təqdim edilən müddəalar və s. haqqında ətraflı məlumat verilir.

**Birinci fəsil "Yetkinlik yaşına çatmayanların cinayət məsuliyyəti haqqında qanunvericiliyin genezisi, müasir vəziyyəti və bu sahədə beynəlxalq standartlar"** adlanır. Birinci fəslin **"Yetkinlik yaşına çatmayanların cinayət məsuliyyəti haqqında qanunvericiliyin genezis məsələləri və müasir vəziyyəti"** adlı birinci yarımfəslində yetkinlik yaşına çatmayanların cinayət məsuliyyəti ilə bağlı məsələlərin hüquqi tənzimlənməsinin inkişaf tarixinin təhlili 9 iyul 1920-ci il tarixli "Yetkinlik yaşına çatmayanların cinayətləri üzrə işlərə baxılmasına dair komissiyalar haqqında" Dekretin öyrənilməsi ilə başlanılır. Daha sonra Azərbaycan SSR-in 9 dekabr 1922-ci il tarixli ilk Cinayət Məcəlləsinin 18-18 b, 24, 25, 33 və 36-cı maddələri tədqiq edilir.

Bundan sonra 3 dekabr 1927-ci ildə Az. SSR-in sayca ikinci Cinayət Məcəlləsi (xüsusilə həmin Məcəlləni 12, 27 və 56-cı maddələri) əsasında yetkinlik yaşına çatmayanların cinayət məsuliyyətinə dair məsələlər öyrənilir.

Sonrakı illərdə baş vermiş və yetkinlik yaşına çatmayanların cinayət məsuliyyəti ilə bağlı məsələlərin hüquqi tənzimlənməsinin inkişaf tarixi baxımından əhəmiyyətli olan hadisəyə 5 may 1930-cu il tarixdə "Yaşadolmamışların işləri üzrə Mərkəzi Komissiya" və "Yaşadolmamışların işləri üzrə yerli komissiyalar haqqında" Əsasnamələrin qəbul edilməsi aid edilir.

Az. SSR-in növbəti Cinayət Məcəlləsinin 8 dekabr 1960-cı il tarixdə qüvvəyə mindiyi qeyd edilir. Göstərilir ki, bu Məcəllədə də yetkinlik yaşına çatmayanların cinayət məsuliyyətinə dair normalar vahid fəsildə sistemləşdirilməmişdi və Məcəllənin ayrı-ayrı yerlərində pərakəndə müddəalar kimi təsbit edilmişdi. Bunula belə, 8 dekabr 1960-cı il tarixli CM-də yetkinlik yaşına çatmayanların cinayət məsuliyyətinə dair normalar daha geniş, çoxsaylı və mütərəqqi idi.

Barəsində bəhs olunan yarımfəsildə1960-cı il tarixli CM-in 10, 22, 23, 36 və bir sıra digər maddələri ətraflı öyrənilir. Qeyd edilir ki, 26 aprel 1977-ci il tarixdə Məcəlləyə maraqlı bir maddə – "Həddi-büluğa çatmamış şəxs haqqında hökmün icrasının təxirə salınması" adlanan 42-1-ci maddə

əlavə edilmişdi. Sonrakı illərdə, məsələn, 1978-ci, 1982-ci, 1994-cü illərdə maddəyə edilmiş əlavə və dəyişikliklər nəticəsində, maddə sonradan "Hökmün icrasını təxirə salma" adlanmağa başlanmışdı. Bununla belə, həmin maddə yetkinlik yaşına çatmayanlara da şamil olunurdu və hətta maddənin mətnində xüsusiləşmiş normalar da nəzərdə tutulurdu.

Göstərilir ki, 1960-cı il tarixli CM uzun müddət qüvvədə olmuş və artıq müstəqillikdən sonra, 1999-cu ildə Azərbaycan Respublikasının hazırda qüvvədə olan yeni Cinayət Məcəlləsi qəbul edilmişdir. Yeni Cinayət Məcəlləsinin xüsusiyyətlərindən biri, onun məzmununda yetkinlik yaşına çatmayanların barəsində cinayət məsuliyyətinin və cəzasının xüsusiyyətlərinə həsr edilmiş müstəqil XIV Fəslin nəzərdə tutulmasıdır.

Bununla belə, Azərbaycan Respublikasının hazırda qüvvədə olan Cinayət Məcəlləsinin XIV Fəslinin müddəaları da Məcəllənin qüvvəyə minməsindən keçən zaman ərzində müəyyən dəyişikliklərə məruz qalmışdır. İşdə tədqiqat mövzusuna uyğun olaraq, CM-ə 30 dekabr 2005-ci il tarixli, 50-IIIQD nömrəli Qanunla, 16 may 2008-ci il tarixli, 607-IIIQD nömrəli Qanunla, 2 noyabr 2012-ci il tarixli, 461-IVQD nömrəli Qanunla və 20 oktyabr 2015-ci il tarixli, 1396-IVQD nömrəli Qanunla edilmiş əlavə və dəyişikliklər təhlil edilmişdir.

Göründüyü kimi, yetkinlik yaşına çatmayanların cinayət məsuliyyəti ilə bağlı məsələlərin hüquqi tənzimlənməsi özünəməxsus inkişaf yolu keçmiş və müasir dövrdə də həmin məsələlərin hüquqi tənzimetmə mexanizminin təkmilləşdirilməsi işi davam etdirilməkdədir.

Birinci fəslin **"Yetkinlik yaşına çatmayanların cinayət əsuliyyəti haqqında beynəlxalq standartlar"** adlanan ikinci yarımfəslində qeyd edilir ki, yetkinlik yaşına çatmayanların cinayət məsuliyyəti haqqında beynəlxalq standartlar bir çox beynəlxlaq-hüquqi sənəd kontekstindən araşdırıla bilər, lakin həmin sənədlər arasında üçü – 4 noyabr 1950-ci il tarixli "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyası; Pekin qaydaları da adlandırılan, Birləşmiş Millətlər Təşkilatının 29 noyabr 1985-ci il tarixli "Yetkinlik yaşına çatmayan şəxslər barəsində ədalət mühakiməsinin icrasına aid minimal standart qaydaları" və Birləşmiş Millətlər Təşkilatının 20 noyabr 1989-cu il tarixli "Uşaq hüquqları haqqında" Konvensiya cari tədqiqat işi üçün xüsusilə önəmlidir.

Nəzərdən keçirilən yarımfəsildə həmin sənədlərin müəyyən etdiyi standartlara ayrı-ayrılıqda baxılır.

Bilavasitə yetkinlik yaşına çatmayanların barəsində ədalət mühakiməsinə həsr edildiyi üçün bu yarımfəsildə Pekin qaydalarnın tədqiqinə daha geniş yer verilir.

Qeyd edilir ki, Pekin Qaydaları sturuktur baxımından 6 (altı) hissə, 30 (otuz) maddədən ibarətdir. Bu beynəlxalq sənəd özündə: yetkinlik yaşına çatmayan şəxslər barəsində cinayət mühakimə icraatının ümumi prinsiplərini; ibtidai istintaq və məhkəmə araşdırmasının xüsusiyyətlərini; məhkəmə qərarlarının çıxarılmasının və təsir tədbirlərinin seçilməsinin xüsusiyyətlərini əks etdirir.

Dissertasiya işi üçün Pekin qaydalarının ən mühüm norması olan məhkəmə qərarının çıxarılmasının rəhbər prinsipləri və təsir tədbirlərinin seçilməsini əks etdirən 17-ci maddəsi xüsusi tədqiq edilir. Bu maddəyə görə, səlahiyyətli orqan təsir tədbirləri seçərkən aşağıdakı prinsipləri rəhbər tutmalıdır:

a) Təsir tədbirləri həmişə təkcə qanun pozuntusunun şəraiti və ağırlığı ilə deyil, yetkinlik yaşına çatmayan şəxsin də vəziyyəti və tələbatı həmçinin cəmiyyətin tələbatı ilə ölçülməlidir;

b) Yetkinlik yaşına çatmayanın şəxsi azadlığını məhdudlaşdırmaq haqqında qərar yalnız məsələyə diqqətlə baxıldıqdan sonra çıxarılmalı və məhdudiyyət mümkün qədər minimuma endirilməlidir;

c) Yetkinlik yaşına çatmayan qanun pozucusu yalnız başqasına qarşı zor işlətməklə ciddi qanun pozuntusunda təqsirli sayıldıqda həmçinin digər müvafiq təsir tədbiri növü olmadıqda azadlıqdan məhrum edilə bilər;

d) Yetkinlik yaşına çatmayanın işinə baxılarkən onun əmin-amanlığı məsələsi müəyyənedici amil olmalıdır.

17.2-ci maddəyə görə, yetkinlik yaşına çatmayan şəxsin törətdiyi heç bir cinayətə görə ölüm hökmü çıxarıla bilməz.

17.3-cü maddəyə görə, yetkinlik yaşına çatmayana cismani cəza verilmir.

17.4-cü maddəyə görə isə, səlahiyyətli hakimiyyət orqanının məhkəmə təhqiqatına istənilən vaxt xitam vermək hüququ olmalıdır.

Qeyd edilir ki, Azərbaycan Respublikasnın hazırki cinayət və cinayət-prosessual qanunvericiliyi məhz Pekin qaydalarına uyğun hazırlanmışdır.

Dissertasiya işinin **ikinci fəsli "Yetkinlik yaşına çatmayanlara təyin edilən cəzalar və cəzaya alternativ cinayət-hüquqi tədbirlər"** adlandırılmışdır. Bu fəsil də iki yarımfəsildən ibarətdir.

İkinci fəslin ilk yarımfəsli **"Yetkinlik yaşına çatmayanlara təyin edilən cəzaların sistemi"** adlanır. Bu yarımfəsildə yetkinlik yaşına

çatmayanlara təyin edilən aşağıdakı cəza növləri ayrı-ayrılıqda tədqiq edilir.

1) cərimə;

2) ictimai işlər;

3) islah işləri;

4) müəyyən müddətə azadlıqdan məhrum etmə.

Burada Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun "Yetkinlik yaşına çatmayanların cinayətləri barədə işlər üzrə məhkəmə təcrübəsi haqqında" 30 iyun 2008-ci il tarixli Qərarı da ətraflı şəkildə araşdırılır.

Yetkinlik yaşına çatmayanlara təyin edilən cəzalarla bağlı aşağıdakılar qeyd edilir.

1) Cərimə, yalnız müstəqil əmək haqqı və ya bu cəzanın icrasına yönəldilə bilən əmlakı olan yetkinlik yaşına çatmayan məhkuma təyin edilir. Cərimə 600 manatadək miqdarda təyin edilir.

2) İctimai işlər 80 saatdan 320 saatadək müddətə təyin olunur. Bu cəza növünün icra müddəti 15 yaşınadək şəxslər üçün 1 gündə 2 saatdan, 15 yaşından on 16 yaşınadək şəxslər üçün isə 1 gündə 3 saatdan çox ola bilməz.

3) Yetkinlik yaşına çatmayan məhkumlara islah işləri 2 aydan 1 ilədək müddətə təyin edilir. Bu zaman məhkumun qazancından məhkəmənin hökmü ilə müəyyən edilmiş miqdarda, 5 %-ən 20 % -ə qədər pul dövlət nəfinə tutulur.

4) Azadlıqdan məhrum etmə yetkinlik yaşına çatmayan məhkumlara 10 ildən çox olmayan müddətə təyin edilir. Adını çəkdiyimiz Plenum qərarında qeyd edilir ki, yetkinlik yaşına çatmayanların təqsirli bilindiyi CM-in müvafiq maddəsinin sanksiyasında nəzərdə tutulmuş azadlıqdan məhrumetmə cəzasının aşağı həddi 10 ildən yuxarı olduqda və belə hallarda 10 il müddətinə azadlıqdan məhrumetmə cəzası təyin edilərkən CM-nin 62-ci maddəsinə istinad edilməsinə ehtiyac yoxdur.

Bu yarımfəsildə, həmçinin yetkinlik yaşına çatmayanlara cəza təyin edilərkən nəzərə alınmalı olan hallar tədqiq edilir. Bu zaman CM-in 58-ci maddəsində nəzərdə tutulmuş hallarla yanaşı aşağıdakı halların cəza təyini zamanı əhəmiyyətinə diqqət yetirilir:

– yetkinlik yaşına çatmayan şəxsin həyat və tərbiyə şəraiti;
– onun psixi inkişaf səviyyəsi;
– onun şəxsiyyətinin digər xüsusiyyətləri;
– kənar şəxslərin ona təsiri.

İkinci fəslin ikinci yarımfəsli **“Tərbiyəvi xarakterli məcburi tədbirlərin anlayışı, məzmunu və tətbiq edilmə xüsusiyyətləri”** adlanır.

Burada Cinayət Məcəlləsinin 87 və 88-ci maddələri ətraflı təhlil olunur. Yetkinlik yaşına çatmayanlara tətbiq edilə bilən aşağıdakı tərbiyəvi xarakterli məcburi tədbirlər tərəfimizdən təqdid edilmişdir:

1) xəbərdarlıq;

2) valideynlərin və ya onları əvəz edən şəxslərin və yaxud müvafiq dövlət orqanının nəzarətinə vermək;

3) vurulmuş ziyanın aradan qaldırılması vəzifəsini həvalə etmək;

4) yetkinlik yaşına çatmayanın asudə vaxtını məhdudlaşdırmaq və onun davranışı ilə bağlı xüsusi tələblər müəyyən etmək.

Bu yarımfəsildə qeyd edilir ki, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 88-ci maddəsində təsbit edilmiş tərbiyəvi xarakterli məcburi tədbirlərin sistemini yeni tədbir növü hesabına genişləndirmək mümkündür. Bu tədbir – yetkinlik yaşına çatmayanın üzərinə zərər çəkmiş şəxsdən üzrxahlıq etmək öhdəliyinin qoyulmasıdır. Üzrxahlıq hüquq pozuntusu törətmiş yetkinlik yaşına çatmamamış şəxsin öz əməlinin mənfi nəticələrini dərk etməsinin, bundan peşman olmasının göstəricisi olmaqla yanaşı, onun əməlindən zərər çəkmiş şəxs üçün də effektiv mənəvi reabilitasiya vasitələrindəndir. Yetkinlik yaşına çatmayanın üzərinə zərər çəkmiş şəxsdən üzrxahlıq etmək öhdəliyinin qoyulması məzmunca ilk baxışdan ona oxşar digər tərbiyəvi xarakterli məcburi tədbirlərdən fərqlənir. Tərbiyəvi xarakterli məcburi tədbir növü kimi xəbərdarlıqdan fərqli olaraq, üzrxahlıq yektinlik yaşına çatmayan şəxsin üzərinə aktiv hərəkət etmək öhdəliyi qoyur. Üzrxahlıq vurulmuş ziyanı aradan qaldırmaq vəzifəsindən də fərqlidir, çünki əgər vurulmuş ziyanı aradan qaldırmaq vəzifəsinin tətbiqi yetkinlik yaşına çatmayanın əmlak vəziyyəti və əmək vərdişləri ilə şərtlənirsə, üzrxahlıq prinsipcə, bütün yetkinlik yaşına çatmayanlara tətbiq edilə bilər. Üzrxahlıq etmək bizim milli, dini və mental xüsusiyyətlərimizə də tamamilə uyğun gəlir. Təklif edirik ki, AR CM-ə aşağıdakı məzmunda 87.5 və 88.2.5-ci maddələr əlavə edilsin:

“87.5. Yetkinlik yaşına çatmayanın üzərinə zərər çəkmiş şəxsdən üzrxahlıq etmək öhdəliyinin qoyulması zamanı yetkinlik yaşına çatmayan şəxs zərər çəkmiş şəxsdən ona vurduğu ziyana görə şəxsən üzr istəyir və əməlindən peşman olduğunu bildirir;

88.2.5. yetkinlik yaşına çatmayanın üzərinə zərər çəkmiş şəxsdən üzrxahlıq etmək öhdəliyinin qoyulması”.

Dissertasiya işinin **üçüncü fəsli "Yetkinlik yaşına çatmayanların cəzadan azad edilməsi"** adlandırılmışdır. Bu fəsil də iki yarımfəsildən ibarətdir.

Üçüncü fəslin birinci yarımfəsli **"Yetkinlik yaşına çatmayanların cəzadan azad edilməsinin ümumi əsasları"** adlanır. Burada ona diqqət yetirilir ki, tərbiyəvi xarakterli məcburi tədbirlər təkcə cinayət məsuliyyətində deyil, cəzadan da azad edilən yetkinlik yaşına çatmayanlara tətbiq edilir.

Böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət etməyə görə məhkum edilmiş yetkinlik yaşına çatmayan şəxs qanunda nəzərdə tutulmuş tərbiyəvi xarakterli məcburi tədbirlər tətbiq edilməklə cəzadan azad oluna bilər.

Məhkəmə az ağır cinayət törətməyə görə məhkum olunmuş yetkinlik yaşına çatmayanı yalnız belə şəxslər üçün nəzərdə tutulmuş qapalı tipli xüsusi təlim-tərbiyə müəssisəsində və ya tibbi-tərbiyə müəssisəsində yerləşdirməklə cəzanın məqsədinə nail olmağı mümkün hesab edərsə, həmin şəxsi cəzadan azad edə bilər.

Bu halda yetkinlik yaşına çatmayan göstərilən müəssisədə 18 yaşına çatana qədər, lakin 3 ildən artıq olmamaq şərti ilə saxlanılır.

Məhkəmə yetkinlik yaşına çatmayanın vaxtından əvvəl həmin müəssisədən buraxılması haqqında qərar da qəbul edə bilər. Bunun üçün, ilk növbədə, yetkinlik yaşına çatmayan islah olunmalıdır. Şəxs islah olunduğu üçün də qeyd edilən tədbirin tətbiqinə zərurət aradan qalxmış olmalıdır.

Bu zaman  qapalı tipli xüsusi təlim-tərbiyə müəssisəsinin və ya tibbi-tərbiyə müəssisəsinin müdiriyyəti və yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiya məhkəməyə birgə təqdimat verə bilər. Yalnız məhkəmə yetkinlik yaşına çatmayanın vaxtından əvvəl həmin müəssisədən buraxılması haqqında qərar qəbul edir.

Üçüncü fəslin ikinci paraqrafı **"Yetkinlik yaşına çatmayanların şərti olaraq vaxtından əvvəl cəzadan azad edilməsi"** adlanır. Burada qeyd edilir ki, cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə 2 növdə cəzaya məhkum edilmiş yetkinlik yaşına çatmayanlara tətbiq edilə bilər:

1) islah işləri;

2) müəyyən müddətə azadlıqdan məhrum etmə.

Qanunda yetkinlik yaşına çatmayanın cəzadan şərti olaraq vaxtından əvvəl azad edilə bilməsi üçün nəzərdə tutulmuş xüsusi şərt – təyin edilmiş cəzanın bir hissəsinin çəkilməsi ilə bağlıdır.

Yetkinlik yaşına çatmayan şəxsin törətdiyi cinayətin ağırlıq dərəcəsindən asılı olaraq, qanun cəzanən çəkilməli olan hissəsini fərqli müəyyən edir.

Belə ki:

1) böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət törətməyə görə təyin edilmiş cəza müddətinin ən azı üçdə bir hissəsi;

2) ağır cinayət törətməyə görə təyin edilmiş cəza müddətinin ən azı yarısı;

3) xüsusilə ağır cinayət törətməyə görə təyin edilmiş cəza müddətinin ən azı üçdə iki hissəsi çəkildikdən sonra yetkinlik yaşına çatmayan şəxs cəzadan şərti olaraq vaxtından əvvəl azad edilə bilər.

**Nəticə** hissəsində nəzəri ümumiləşdirmələr, qanunvericilik təklifləri və digər nəticələr sistemli şəkildə təqdim edilir.

Təcrübi işçilər arasında keçirilmiş rəy sorğusunun nəticələri, 14-18 yaşadək uşaqlar tərəfindən və ya onların iştirakı ilə törədilmiş cinayətlərə, cinayət növləri üzrə cinayət törətmiş 14-18 yaşadək uşaqlara, cinayət törətmiş 14-18 yaşadək uşaqların sosial-demoqrafik əlamətlərinə görə bölgüsünə, ayrı-ayrı cinayət növləri üzrə məhkum olunmuş 14-18 yaşadək uşaqlara, məhkum olunmuş 14-18 yaşadək uşaqların tərkibinə, 14-18 yaşadək məhkumlara tətbiq olunmuş əsas cəza tədbirlərinə və azadlıqdan məhrum olunmuş 14-18 yaşadək uşaqların məhkum olunma müddətinə görə bölgüsünə dair son illərin statistik göstəriciləri işin **əlavələr** hissəsində əks olunmuşdur.

**Tədqiqat işi ilə əlaqədar müəllifin aşağıdakı elmi əsərləri nəşr olunmuşdur:**

1. Yetkinlik yaşına çatmayanların törətdikləri cinayətlərin subyekti və subyektiv cəhəti // Azərbaycan Respublikasında dövlət və hüquq quruculuğunun aktual problemləri, Bakı, 2007, EMM, 17-ci buraxılış.
2. Yetkinlik yaşına çatmayanlara cəza təyin edilməsində yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyaların rolu // Azərbaycan Respublikasında dövlət və hüquq quruculuğunun aktual problemləri, Bakı, 2007, EMM, 18-ci buraxılış.
3. Yetkinlik yaşına çatmayanlara cəza təyin olunarkən nəzərə alınan hallar // Azərbaycan Respublikasında dövlət və hüquq quruculuğunun aktual problemləri, Bakı, 2007, EMM, 19-cu buraxılış.

4. Yetkinlik yaşına çatmayanların cinayət işlərinin nəzəri və prosessual xüsusiyyətləri // Odlar Yurdu Universitetinin elmi və pedaqoji xəbərləri 2007, № 22.

5. Освобождение от наказания несовершеннолетних (сравнительный анализ) // Межкультурные коммуникации, №8, Tbilisi 2009.

6. Yetkinlik yaşına çatmayanların cinayət işlərinin nəzəri və prosessual xüsusiyyətləri // Vətəndaş və cəmiyyət, № 2 (034), mart 2007-ci il, Bakı.

7. Особенности уголовно-процессуального законодательства по делам несовершеннолетних // Наше Право, 2013, № 11, с. 51-56.

8. Yetkinlik yaşına çatmayanların cəzadan azad edilməsinin ümumi əsasları // Odlar Yurdu Universitetinin elmi və pedaqoji xəbərləri, 2013, № 35.

9. Yetkinlik yaşına çatmayanların cinayət məsuliyyəti // "Ailə-məişət zorakılığının sosial-psixoloji, cinayət-hüquqi və kriminoloji problrmləri" mövzusunda Beynəlxalq elmi-praktik konfransın materialları. Bakı, 2016-cı il.

10. Yetkinlik yaşına çatmayan məhkumların cəzanın qalan hissəsini çəkməkdən azad olunması şərtləri // "Hüquq elminin müasir problemləri: Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin yeni tendensiyaları" mövzusunda VI Respublika elmi-nəzəri konfransın materialları. Bakı, 5-6 may 2016-cı il.

**Исмаилов Улви Дадаш оглы**

**Проблемы назначения наказаний несовершеннолетним**

## РЕЗЮМЕ

Данная работа посвящена современным и актуальным проблемам назначения уголовных наказаний несовершеннолетним лицам. Автор попытался раскрыть проблему и особенности назначения наказаний к лицам, не достигшим совершеннолетия, в контексте дифференцированного подхода к личности последних. Диссертационное исследование состоит из введения, трех глав, заключения, списка литературы и приложений.

Первая глава – «Генезис и современное состояние законодательства об ответственности несовершеннолетних, и международные стандарты в этой сфере» посвящена ретроспективному анализу уголовных законов Азербайджана, и изучению международно-правовых актов в сфере регулирования стандартов уголовной юстиции по отношению несовершеннолетних.

Вторая глава – «Наказания и альтернативные наказанию уголовно-правовые меры, применяемые к несовершеннолетним» посвящена анализу системы наказаний, применяемых к несовершеннолетним, вопросов их эффективности, также системы принудительных мер воспитательного характера.

Третья глава – «Освобождение несовершеннолетних от наказания» посвящена анализу общих вопросов института освобождения от уголовной ответственности и наказания, и особенностей условно досрочного освобождения несовершеннолетних от наказания.

В заключении подитожываются выводы автора.

В приложениях отражены эмпирические данные исследования (результаты опроса и официальная статистика).

**Ismailov Ulvi Dadash Oglu**

## Problems of assignment of punishment by the minor

## SUMMARY

This work is devoted to modern and urgent problems of purpose of criminal sanctions to minors. The author tried to reveal a problem and features of assignment of punishment to the persons which didn't reach an age of majority in the context of the differentiated approach to the identity of the last. The dissertation research consists of introduction, three chapters, the conclusion, the list of references and applications.

Chapter 1 – "Genesis and the current state of the legislation on responsibility of minors, and international standards in this sphere" is devoted to the retrospective analysis of penal statutes of Azerbaijan, and studying of international legal acts in the sphere of regulation of standards of punitive justice on the relation of minors.

Chapter 2 – "Punishments and the criminal legal measures alternative to punishment applied to minors" is devoted to the analysis of system of the punishments applied to minors, questions of their efficiency, also systems of enforcement powers of educational nature.

The chapter 3 – "Release of minors from punishment" is devoted to the analysis of general questions of institute of release from criminal liability and punishment, and features of conditionally early release of minors from punishment.

In the conclusion the author's conclusions are summary.

Empirical these researches (survey results and official statistics) are reflected in applications.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ФИЛОСОФИИ**

*На правах рукописи*

**ИСМАИЛОВ УЛВИ ДАДАШ ОГЛЫ**

# ПРОБЛЕМЫ НАЗНАЧЕНИЯ НАКАЗАНИЙ НЕСОВЕРШЕННОЛЕТНИМ

Специальность: 5611.01 – Уголовное право и криминология; уголовно-исполнительное право

## А В Т О Р Е Ф Е Р А Т

диссертации на соискание ученой степени доктора философии по праву

**Баку – 2016**